ÜLKƏR XANLAROVA
ADU
Təbriz küçəsi 81
ulkar.khanlar@gmail.com

# İNGİLİS DİLİNDƏ AKADEMİK YAZI NÜMUNƏLƏRİNDƏ TƏYİN BUDAQ CÜMLƏLƏRİNDƏN İSTİFADƏ OLUNMASININ TƏDRİSİ YOLLARI

**Xülasə**

Məqalə akademik yazı nümunələrinin mühüm xüsusiyyətləri, bu nümunələrdə təyin budaq cümlələrindən istifadə olunmasının əhəmiyyəti və bu cümlələrin səmərəli şəkildə tədrisi yollarından bəhs edir. Tabeli budaq cümlələrin bir növü olmaqla, təyin budaq cümləri yazıda qısa cümlələrdən istifadə olunmasının və tabesizlik bağlayıcılarının tez-tez təkrarlanmasının qarşısını alır. Təyin budaq cümlələrindən səmərəli şəkildə istifadə olunması müəllifin peşəkar yazı qabiliyyətindən xəbər verməklə yanaşı, yazı nümunəsinin oxucu üzərində təsir gücünü artırır.

Məqalənin əvvəlində təyin budaq cümləsinin əsas nitq hissəsi olan sifət ilə müqayisə edilməsi nəticəsində onların ortaq xüsusiyyətləri müəyyən edilir, sonra isə baş və budaq cümlə arasındakı əlaqədən bəhs edilir. Müəllif təyin budaq cümləsinin mübtəda və xəbərə malik olması və ayrıca mövcud olmayıb yalnız baş cümlə ilə birləşdikdə məna kəsb etməsi kimi mühüm xüsusiyyətlərindən danışır.

Ardınca müəllif tərəfindən təcrübəçi tələbələri müxtəlif mövzularla bağlı maraqlı ideyalarla təmin edən Ted Talks konfransları təklif olunur. Akademik yazı dərslərinin birində tələbələr bu videolardan birini izləməli və burada səsləndirilən fikirlərdən yararlanaraq paraqraf yazmalıdırlar. Yazı yazarkən onlar müəllim tərəfindən görüntülü şəkildə təqdim olunmuş təyin budaq cümlələrindən istifadə etməlidirlər. Belə bir tapşırıq tətbiq etməklə, tələbələrdə akademik yazı nümunələrində sözügedən budaq cümlələrdən istifadə etmə vərdişi yaratmaq mümkündür.

Məqalənin növbəti hissəsində təyin budaq cümlələrinin məhdudlaşdırıcı və əlavəedici kimi iki növü təsvir edilir. Bu cümlə növlərinin arasındakı fərqin izah edilməsi üçün effektiv və aydın nümunələrdən istifadə edilir və bu cümlələrdə durğu işarələrindən düzgün istifadə olunması qaydaları oxucuların diqqətinə çatdırılır.

Məqalənin sonrakı hissələri tələbələrin mövzunu tamamilə dərk etmələrinə yardım edən müxtəlif metodların təsvirinə həsr olumuşdur. Bu metodlar bir neçə stolüstü oyun və bir sıra şifahi və yazılı interaktiv tapşırıqlar vasitəsilə həyata keçirilərək yenicə əldə olumuş biliklərin möhkəmləndirilməsinə, dərsin daha rəngarəng və əyləncəli keçməsinə xidmət edir.

Son hissədə müəllif mövzunun tələbələrin diqqətinə düzgün şəkildə çatdırılması və müvafiq təlim-tədris hədəflərinə nail olunması üçün əvvəlcə nəzəri məlumatlara yer verib sonra isə interaktiv tapşırıqlardan istifadə edilməsinin əhəmiyyətini vurğulamışdır.

**Açar sözlər:** akademik yazı, budaq cümlə, təyin budaq cümləri, məhdudlaşdırıcı, əlavəedici, təyinedici, təyinedilən, nisbi əvəzliklər.

Akademik yazı tədqiqatçılar, elmi jurnal oxucuları, müəllim-professor heyəti və konfrans iştirakçılarına ünvanlanmış yazı növüdür. Hər bir sahədə olduğu kimi akademik yazının da özünəməxsus tələbləri və şərtləri vardır. İlk növbədə, bu yazı növü öncədən planlaşdırılmalı və müəyyən sxem əsasında qurulmalıdır. Planın hər bir tərkib hissəsi ümumi məqsədə xidmət etməli və sonadək eyni mövzudan bəhs etməlidir. Müvafiq keçid sözlərindən

istifadə etməklə, akademik yazı nümunəsinin paraqrafları arasında məntiqi əlaqə qurulmalıdır. Yazının müəllifi fikrini səlis ifadə etməli və irəli sürdüyü ideyalara effektiv nümunələr gətirməlidir. Həmçinin akademik mətnlər rəsmi üslubda yazılmalı, jarqon, şablon sözlər və qısaltmalardan istifadə olunmamalıdır. Akademik yazı nümunələrinin səmərəliliyini artırmaq üçün irəli sürülən şərtlərdən biri də sadə cümlələrdən mümkün qədər az istifadə edilməsi, onun əvəzinə tabeli və tabesiz mürəkkəb cümlələrə üstünlük verilməsidir.

İngilis dilində sadə cümlə, tabeli mürəkkəb cümlə, tabesiz mürəkkəb cümlə və tabesiz-tabeli mürəkkəb cümlə növləri mövcuddur. Bunlardan tabeli mürəkkəb cümlə baş və budaq cümlədən ibarətdir. Təyin budaq cümləsi tabeli mürəkkəb cümlənin bir növü kimi akademik yazı nümunələrində qısa cümlələrin istifadəsinə yol verilməməsinə və tabesizlik bağlayıcılarının tez-tez təkrarlanmasının qarşısının alınmasına xidmət edir. Təyin budaq cümlələrindən səmərəli şəkildə istifadə olunması müəllifin peşəkar yazı qabiliyyətindən xəbər verməklə yanaşı, yazı nümunəsinin oxucu üzərində təsir gücünü artırır [1, s. 230]. Həmçinin bu növ cümlələr ötürülən informasiyanın dəqiqliyini artıraraq oxucu üçün heç bir məqamın qaranlıq qalmamasını təmin edir. Təyin budaq cümlələri yazının daha konkret səslənməsini və daha çox təsviri xarakter daşımasını təmin etdiyi üçün mühüm əhəmiyyət kəsb edir. [2]. Sadalanan faktları nəzərə alaraq, təyin budaq cümləsi mövzusunun akademik yazı və oxu fənninin tərkib hissəsi kimi ali məktəbdə təhsil alan tələbələrə tədris olunmasının xüsusi əhəmiyyəti olduğunu söyləmək mümkündür. Sözügedən mövzunun tələbələrə səmərəli şəkildə çatdırılmasının bir sıra yolları vardır.

Hər bir yeni dərsin izah edilməsi zamanı baş verdiyi kimi burada da ilk öncə mövzunun adının tərkib hissələrinin hər birini ayrı-ayrılıqda dinləyicilərin nəzərinə çatdırmaq lazımdır [3]. Təyin budaq cümləsinin əsas nitq hissəsi olan sifət ilə müqayisə edilməsi bu növ cümlələrin funksiyasının asanlıqla dərk edilməsinə imkan verir. Nümunə olaraq, “Pizza is not very healthy” ‘Pizza çox da sağlam qida deyil’ və “Pizza, which most people love, is not very healthy” ‘Bir çox insanların xoşladığı pizza çox da sağlam qida deyildir’ cümlələrini göstərə bilərik [4]. İlk cümlədə “pizza” ismi “healthy” sifəti ilə, ikinci cümlədə isə “pizza” ismi “which most people
love” təyin budaq cümləsi ilə təyin edilmişdir. Buradan belə bir nəticəyə gəlmək olar ki, ingilis dilində həm sifət, həm də təyin budaq cümləsi isim və əvəzliyin təyin edilməsinə xidmət edir. Mövzunun adındakı “budaq cümlə” məfhumunun da ayrıca izah edilməsi məqsədəuyğundur. Bu o deməkdir ki, budaq cümlənin mübtəda və xəbərə malik olması, onun ayrıca bir cümlə kimi mövcud ola bilməməsi və yalnız baş cümlə ilə birləşdikdə tabeli mürəkkəb cümlə əmələ gətirməsi təcrübəçi tələbələrin diqqətinə nümunələr əsasında çatdırılmalıdır. Məsələn, “People love pizza” ‘insanlar pizzanı xoşlayır’ sadə cümləsinin “Which most people love” ‘bir çox insanların xoşladığı’ budaq cümləsi ilə müqayisəsi nəticəsində aydın olur ki, hər iki cümlənin mübtəda və xəbəri olmasına baxmayaraq, ikinci nümunə bitmiş fikri ifadə etmir. Beləliklə, təyin etmə xüsusiyyəti və budaq cümlə anlayışını izah etdikdən sonra, onların birgə hansı funksiyanı yerinə yetirdiyindən bəhs etmək olar.

Növbəti mərhələdə, görüntülü təqdimatdan istifadə etməklə çoxlu sayda sadə cümlələri təcrübəçi tələbələrin diqqətinə çatdırmaq və onlardan eyni mübtədaya malik iki sadə cümləni birləşdirərək təyin budaq cümləsi qurmalarını tələb etmək mümkündür [5]. “The boy is tired. The boy is carrying a heavy backpack.” ‘oğlan yorğundur. Oğlan ağır bel çantası daşıyır’. Nümunədən göründüyü kimi, cümlələrin hər biri bir mübtəda və bir xəbərə malik olmaqla sadə cümlədir. Qrammatik cəhətdən düzgün quruluşa malik olsalar da, bu iki cümlə heç də maraqlı səslənmir və axıcı nitq üçün məqsədəuyğun hesab edilmir. Tələbələrin onları təyin budaq cümləsi şəklində birləşdirməsinə kömək etmək üçün onların mübtədalardan birini nisbi əvəzlik ilə əvəz etmələrini təmin etmək lazımdır. Bu zaman “The boy is tired” ‘oğlan yorğundur’

cümləsi və “Who is carrying a heavy backpack” ‘ağır bel çantası daşıyan’ budaq cümləsi əldə olunur. Tapşırığın bu qismi yerinə yetirildikdən sonra təyin edən tərəfin təyin olunan tərəfdən sonra yerləşdirilməsi həyata keçirilməlidir və “The boy who is carrying a heavy backpack is tired” kimi son variant əldə olunmalıdır. O da qeyd olunmalıdır ki, ingilis dilində təyinedici demək olar ki, heç bir halda təyin olunan tərəfdən əvvəl işlənmir [6, s. 59]. Yuxarıda qeyd olunan cümlənin tərkib hissələrini müxtəlif animasiyalardan istifadə edib görüntülü təqdimat vasitəsilə əyani şəkildə nümayiş etdirmək yerinə düşər. Bu zaman təcrübəçi tələbələr sadə cümlə ilə mürəkkəb cümlənin hansının daha effektiv səsləndiyini əyani şəkildə görə və özünün səsləndirdiyi cümlə ilə doğru cavabı müqayisə edə bilərlər.

Təyin budaq cümlələrinin səmərəli şəkildə tədris olunmasında görüntülü təqdimatdan istifadə etməyin daha bir üsulu “Ted Talks” konfranslarından birini dərsdə nümayiş etdirmək və tələbələrin nümayiş etdirilən çıxışın əsas ideyasından yararlanaraq paraqraf yazmalarını təmin etməkdir. Məsələn, Matt Cutts adlı informasiya texnologiyaları üzrə mütəxəssis 3 dəqiqəlik video çarxda 30 gün ərzində hansı arzularını reallaşdırdığı barədə danışır [7]. Tələbələr bu videonu izlədikdən sonra “30 gün vaxtınız olsa, hansı arzularınızı həyata keçirərdiniz?” mövzusunda paraqraf yazırlar. Yazı prosesinin əsas şərtlərindən biri isə müəllim tərəfindən ekranda təqdim olunmuş “The first thing that I want to do ‘etmək istədiyim ilk şey’ “The second goal that I would like to reach” ‘çatmaq istediyim ikinci məqsəd’, “The person who I want to practise new things with” ‘birlikdə yeni işlər görmək istədiyim şəxs’, “The time when I want to make my dreams come true” ‘arzularımın həyata keçməsini istədiyim vaxt’, “The place where I would like to achieve my goals” ‘məqsədlərimə çatmaq istədiyim yer’ kimi təyin budaq cümlələrindən mümkün qədər çox istifadə etməkdir. Belə bir tapşırıq tətbiq etməklə, tələbələrdə akademik yazı nümunələrində sözügedən budaq cümlələrdən istifadə etmə vərdişi yaratmaq mümkündür.

Akademik yazı nümunələrində istifadə olunan təyin budaq cümlələrinin məhdudlaşdırıcı və əlavəedici olmaqla iki növü vardır. Bu iki növ arasındakı fərqin təcrübəçi tələbələrə səmərəli şəkildə çatdırılması üçün eyni cümlə nümunəsindən istifadə edilməsi məqbuldur. Məsələn, the holiday that is celebrated on March 20 is Novruz Holiday ‘Martin 20-də qeyd olunan bayram Novruz bayramıdır’. Qeyd olunan nümunədəki that is celebrated on March 20 ‘martın 20-də qeyd olunan’ təyin budaq cümləsi olmazsa, hansı bayramdan bəhs olunduğu oxucu üçün qeyri-müəyyən olacaqdır. Belə ki, Azərbaycan xalqının çoxlu sayda bayramları vardır. Eyni mövzuda, lakin əlavəedici təyin budaq cümlənin işləndiyi ikinci nümunəyə nəzər salaq. Novruz Holiday, which is celebrated on March 20, is my favourite one ‘martin 20-də qeyd olunan Novruz bayrami mənim sevimli bayramımdır’. Bu cümlənin which is celebrated on March 20 ‘martın 20-də qeyd olunan’ hissəsi də təyin budaq cümləsi olsa da, ilk nümunədən fərqli olaraq onun cümlədə funksiyası hər kəsə məlum olan Novruz bayramı haqda əlavə məlumat verməkdir, yəni qeyd olunan hissəni cümlədən çıxardıqda belə, informasiya itkisi baş vermir.

Tələbələrin dərsin əvvəlində əldə etdikləri nəzəri bilikləri möhkəmləndirmək məqsədilə dərs müddətində interaktiv tapşırıqlardan istifadə edilməsi məqsədəuyğun hesab edilir. Məhz təyin budaq cümlələri ilə bağlı bir neçə tapşırıq nümunəsinə nəzər salaq. Təklif olunan tapşırıq vərəqini çap edib bir cüt zər əldə etməklə interaktiv oyunu sinif otağında tətbiq etmək mümkündür [8]. Vərəqin üzərində 36 xana mövcuddur və bunların hər birində tələbəyə bir mövzu barədə danışmaq tapşırılır. Nümunələrə nəzər salaq: dincələ bildiyiniz bir məkanı təsvir edin, ailəsini bəyəndiyiniz insandan danışın, görmək istəmədiyiniz bir işi təsvir edin və sair. Tələbələrə təklif edilən tapşırıqların strukturu təsadüfi seçilməmişdir. Burada əsas məqsəd ondan ibarətdir ki, təcrübəçi tələbələr nitqlərində bacardıqca daha çox təyin budaq cümlələri işlətsin. Məsələn, tələbə ilk suala “My house is the only place where I can have a rest. My study, which is on the second floor, is the place where one can stay alone for hours and enjoy

the quietness. It is also the room in which you can read a lot of books, and I am the person who relaxes by reading books" 'mənim evim istirahət edə bildiyim yeganə yerdir. Evimin ikinci mərtəbəsində yerləşən iş otağım elə bir məkandır ki, orada saatlarla tək qalıb səssizlikdən zövq almaq olar. Bura həm də elə bir otaqdır ki, çoxlu sayda kitablar oxumaq mümkündür və mən də kitab oxumaqla dincələn bir insanam' cavabını verərsə, ardıcıl olaraq 4 təyin budaq cümləsi işlətmiş olacaqdır. Bu da təyin budaq cümlələrinin tez bir zamanda mənimsənilib nitqə tətbiq edilməsi deməkdir.

Başqa bir internet səhifəsi də maraqlı stolüstü oyunlar təklif edir. Bunlardan biri də "Who, which, that" 'Kim, hansı,o' oyunudur [9]. Bir daha zərdən istifadə edib xananın nömrəsini müəyyən etdikdən sonra, tələbələr hər bir xanada verilmiş cümlədə nöqtələrin yerinə lazımi nisbi əvəzliyi qoymalıdır. Bu tapşırıq tələbələrə nisbi əvəzlikləri bir-birindən fərqləndirməyə kömək edəcəkdir.

İyerarxiya adlı tapşırıq da təyin budaq cümlələrinin quruluşunu əzbər öyrənmək baxımından çox faydalıdır [10]. Tapşırığa əsasən, eyni bir cümlə nümunəsini tələbə 5-6 dəfə təkrarlayır, lakin hər dəfə cümləyə yeni bir söz əlavə etməklə onu daha da mürəkkəbləşdirir. Qeyd edək ki, edilən əlavələrin əsas hissəsini yenə də təyin budaq cümlələri təşkil etməlidir. Buna dair bir nümunəyə nəzər salaq: 1) He picked up the book that fell. 'O, düşən kitabı qaldırdı'; 2) He picked up the book that just fell. 'O, elə indicə düşən kitabı qaldırdı'; 3) He picked up the book that kept falling yesterday morning. 'O, dünən durmadan yerə düşən kitabı qaldırdı'; 4) He picked up the book that had fallen under the table after his teacher complained. 'O, müəllimi şikayət etdikdən sonra stolun altına düşən kitabı qaldırdı.

Beləliklə, eyni bir cümlənin əsas tərkib hissəsini dəfələrlə təkrar etməklə tələbələrdə təyin budaq cümlələrindən istifadə etmə qabiliyyətini avtomatlaşdırmağa nail olmaq olar.

Bundan əlavə, təyin budaq cümlələrinin səmərəli şəkildə tədris edilməsi üçün şifahi oyunlar da mövcuddur. Bitdom ədəbi jurnalının redaktoru, TED-İELTS.com və İELTS-teaching.com internet səhifələrinin sahibi və baş müəllim David S Wills internet səhifəsində İngilisdilli ölkələrdə məşhur olan klassik "Tabu" oyununu təklif edir [11]. Oyunun əsas mahiyyəti ondan ibarətdir ki, sizə Paris, Fransa, qüllə və hündür sözlərini istifadə etmədən Eyfel qülləsini təsvir etmək tapşırılır. Bu, məşhur bir Avropa ölkəsində yerləşən tanınmış məkandır. Bu, metaldan hazırlanmış bir konstruksiyadır. Beləliklə, artıq iki təyin budaq cümləsi işlətmək zərurəti yaranır.

Bəzi mənbələrdə, əsas və ikinci dərəcəli təyin budaq cümlələri arasındakı fərqi auditoriyanın diqqətinə çatdırmaq üçün "Guess who?" (Tap görüm kimdir?) oyununu irəli sürülür [12]. Bu tapşırıq növü tətbiq edildiyi müddətdə sinif otağında tələbələrə bir-birinin adını çəkmək qadağan edilir. Bu zaman, hər hansı bir yoldaşına müraciət etmək istəyən tələbə onun əlamətlərini söyləmək məcburiyyətində qalır və beləliklə, təyin budaq cümləsi işlətməli olur. Deyək ki, tələbənin biri digərindən qələm almaq istəyir. O, bu zaman "I want to ask the student who has a purple shirt to borrow a pencil" (Mən bənövşəyi köynək geymiş tələbədən sadə qələm borc götürmək istəyirəm) fikrini səsləndirir. Belə bir cümlə işlədərkən tələbəyə aydın olur ki, burada təyin budaq cümləsinin məhdudlaşdırıcı növü istifadə edilməlidir. Əks təqdirdə, tələbənin sinifdəki yoldaşlarından hansı birinə müraciət etdiyi məlum olmayacaqdır.

Beləliklə, yuxarıda ifadə olunmuş fikirlərdən belə nəticəyə gəlmək olar ki, ingilis dilindəki təyin budaq cümlələrinin tələbələrin diqqətinə düzgün şəkildə çatdırılması üçün əvvəlcə nəzəri məlumatlara yer verilməli, sonra isə səsləndirilmiş hər bir yeni fikir interaktiv tapşırıq nümunəsi ilə əyani şəkildə tələbələrə nümayiş etdirilməlidir. Dərsin əvvəlində müəyyən olunmuş təlim nəticlərinə dərsin sonunadək yiyələnmək üçün nəzəri biliklərin təcrübəyə tətbiq olunması zəruridir. Bu həm də dərsin monotonluqdan çıxmasına yardım edərək dinləyicilərin diqqətinin yayınmasının qarşısını alır. Bununla belə, verilən tapşırıqlar dərsin mövzusundan

kənara çıxmamalı və öncədən hazırlanmış dərs planına müvafiq olaraq lazımi mərhələlərdə və müəyyən vaxt çərçivəsində həyata keçirilməlidir. Tapşırıqlar tətbiq olunduğu zaman qruplar və cütlərlə iş görüldüyündən tələbələr bir-birlərinin səsləndirdiyi fikirlərdən yararlana və yoldaşlarının dərs fəaliyyətini qiymətləndirə bilirlər.

## ƏDƏBİYYAT

1. *Oshima A*. and *Hogue A*.Writing Academic English // Pearson Longman. - 4-th edition. - London, 2006. – p.230.
2. https://writingexplained.org/grammar-dictionary/adjective-clause
3. https://study.com/academy/lesson/esl-adjective-clauses-activities-games.html
4. https://examples.yourdictionary.com/example-adjective-clauses.html
5. https://busyteacher.org/16396-how-to-teach-relative-clauses.html
6. *Nigel Fabb* The Difference between English Restrictive and Nonrestrictive Relative Clauses // Journal of Linguistics. -1990.-Vol.26.-No.1-p.57-77.
7. https://www.youtube.com/watch?v=UNP03fDSj1U
8.https://www.allthingsgrammar.com/relative-clauses.html
9.https://en.islcollective.com/resources/printables/worksheets_doc_docx/relative_clause_who_which_and_that_board_game/elementary-a1/87503
10.https://freelanguagestuff.com/compound-and-complex-sentences/
11.https://ielts-teaching.com/a-fun-way-to-practice-adjective-clauses/
12.https://busyteacher.org/14532-how-to-teach-adjective-clauses-tips-activities.html

**U.Khanlarova**

## Teaching Methods of the Adjective Clauses in the Academic Writing

### Summary

The article deals with the description of the characteristic features of the academic pieces of writing and the importance of using relative clauses in them. Being one type of subordinate clauses, adjective clauses help to avoid using choppy sentences and repeating coordinating conjunctions in writing. Making an effective use of adjective clauses illustrates the author’s professional writing skills and enables him or her to make a great impression on the audience. Furthermore, these kinds of sentences make the information sound more accurate which contributes to unambiguity.

At the beginning of the paper, an adjective clause is compared to an adjective to find similarities between them after which the relationship between a main clause and a subordinate clause has been emphasized. The author also talks about the key features of a subordinate clause like containing a subject and a verb and being able to make sense when combined with a main clause.

Then, the paper offers to use Ted Talks conferences which provide trainees with interesting ideas on various topics. In an academic writing lesson, students watch one of these videos and write a paragraph based on these ideas. Besides, they use templates which contain relative pronouns and which are presented by the teacher on the screen. Such kind of practice helps students get into the habit of using adjective clauses in their academic pieces of writing.

The subsequent paragraph of the article deals with the two types of adjective clauses, like restrictive and nonrestrictive adjective clauses. The explanation of the so-called clauses has been realized through effective and clear examples which are helpful in differentiating between the two types of adjective clauses. Comma rules connected with them have also been emphasized.

The following parts of the article are devoted to the description of various techniques which give students the chance to completely understand this topic. These techniques include several table games and a number of oral and written interactive activities which enable the instructor to consolidate the newly-obtained knowledge and to make a lesson more colourful and entertaining.

In the concluding paragraph of the article, it has been mentioned that after providing class with the theoretical knowledge, it is important to use interactive activities and various interaction patterns to reach the appropriate teaching aims.

**Key words:** academic writing, subordinate clause, relative clauses, restrictive, nonrestrictive, modifier, antecedent, relative pronouns.

**У.Ханларова**

## Использование определительных придаточных предложений в академическом письме

### Резюме

Статья посвящена описанию характерных особенностей образцов академического письма и важности использования придаточных определительных предложений в таких образцах. Являющиеся одним из видов придаточных предложений, определительные придаточные предложения позволяют избежать использования коротких предложений и повторения соединительных союзов в письме. Эффективное применение определительных придаточных предложений не только свидетельствуют о профессиональных письменных навыках автора, но и дает ему возможность произвести хорошее впечатление на публику. Кроме того, при помощи этих предложений информация звучит более точно и ясно.

В начале статьи придаточное предложение сравнивается с прилагательным чтобы найти сходства между ними после которого подчеркивается связь между главными и придаточными предложениями. Автор также описывает основные особенности придаточных предложений.

Далее автор предлагает использовать конференции Ted Talks которые представляют студентам интересные идеи по различным темам. На уроке академического письма студенты смотрят видео и пишут эссе на основе этих идей. Одновременно они используют шаблоны содержающие относительные местоимения и представленные преподавателем на экране. Такая практика помогает студентам приобрести привычку использования определительными придаточными предложениями.

Следующий параграф статьи посвящен двум типам определительных придаточных предложений и знакам препинания связанные с ними. Так называемые предложения поясняются на эффективных и ясных примерах какие в свою очередь помогают проводить различия между ограничительными и неограничительными придаточными предложениями.

Следующие части работы посвящены описанию различных методов, которые дают студентам возможность полностью понять данную тему. Автор не только описывает эти методы, но и предлагает настольные игры, ряд усных и письменных интерактивных заданий для закрепления недавно полученных знаний.

Чтобы достичь целей обучения в заключении упоминается важность использования интерактивных заданий и различных типов взаимодейсвия после того, как преподаватель обеспечивает класс необходимыми теоретическими знаниями.

**Ключевые слова:** академическое письмо, придаточные предложения, придаточные определительные предложения, ограничительный, неограничительный, определитель, определяющаяся сторона, относительные местоимения.
Redaksiyaya daxil olma tarixi: 24.07.2019

Redaksiyaya daxil olma tarixi: 21.02.2019
Çapa qəbul olunma tarixi: 25.07.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Aytən Byaramova tərəfindən çapa tövsiyə olunmuşdur.